# 100
# ibrətamiz
# KƏLAM

Tərcümə edən:
**Əlixan Musayev**

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

(1) Rəvayət edilir ki, bir nəfər Abdullah ibn Ömərə ﵁ yazdığı məktubunda xahiş edir ki, ona bütün elmi özündə cəm edən bir nəsihət yazsın. İbn Ömər ﵁ də ona belə cavab yazır: "Elm dəryadır. Lakin əgər bacarırsansa, heç kəsin qanını axıtmadığın, heç kəsin malını haqsızcasına yemədiyin, heç kəsin namusuna toxunmadığın və bir də müsəlman camaatdan ayrılmadığın halda Allahın hüzuruna get".

(2) Rəvayət edilir ki, Əli ibn Əbu Talib ﵁ demişdir: "Ey insanlar! Bu dünya gəldi-gedərdi və o, artıq geridə qalmışdır. Axirət isə qarşıda hər kəsi gözləməkdədir. İkisinin də öz övladları, *yəni ona könül bağlayanları* var. Siz, ey müsəlmanlar, dünya övladlarından yox, Axirət övladlarından olun! Bu gün bir iş görürsünüz, lakin sorğu-sual olunmursunuz. Sabah isə sorğu-sual olunacaq və tövbə edə bilməyəcəksiniz".

Burada Əli ibn Əbu Talib ﵁ dünyanın fani olduğunu və haqq-hesab gününün yaxınlaşdığını bildirir.

(3) Cundəb ibn Abdullah ﵁ demişdir: "İnsanın bədən əzalarından ilk əvvəl çürüyəni onun qarnıdır. Odur ki, təmiz və halal olanlardan yeməyə imkanı olan hər kəs, qoy ancaq təmiz və halal olanlardan yesin. Eləcə də, nahaq yerə bir ovuc qan tökməməklə Cənnəti qazanmaq imkanı olan kəs, qoy qan tökməsin".

Bu sözlərlə Cundəb ibn Abdullah ﵁ nahaq yerə qan tökən zalımların Cəhənnəmlik olacağını xəbər verir.

(4) Əvzai ﵀ demişdir: "Allah bir bəndəsini elmin bərəkətindən məhrum etmək istədikdə, ona yanlış danışan dil nəsib edər".

Əvzai ﵀ bununla demək istəyir ki, Allahın xeyirə müvəffəq etmədiyi kimsə haqq söz danışa bilməz, əksinə, ömrünü bihudə işlərə sərf edər və getdikcə cəhalətini artırar. Bu sözdən aydın başa

düşülür ki, elmli olan bir adam Allahı qəzəbləndirərsə, Allah onu elmin bərəkətindən məhrum edər.

5 Cabir ibn Abdullah رضي الله عنه demişdir: "Oruc tutduqda, qoy sənin qulağın, gözün və dilin də yalan sözlərdən və başqa günahlardan çəkinməklə oruc tutsun. Üstəlik, oruclu ikən sənin xidmətində duran kimsələrə əziyyət vermə, vüqarlı və təmkinli ol. Və nəbadə bayram etdiyin günlə oruc tutduğun günü eyni keçirəsən".

Səhabə demək istəyir ki, oruc insana, onun ac və susuz qalması üçün vacib buyurulmayıb. Buyurulub ki, onun sayəsində insan bütün bədən üzvlərini, ələlxüsus da qəlbini və nəfsini islah etsin.

6 Abdullah ibn əl-Mubarək رحمه الله demişdir: "Ədəb-əxlaq, demək olar ki, dinin üçdə biridir".

Abdullah ibn əl-Mubarək رحمه الله demək istəyir ki, insanın ədəbi və əxlaqı onun necə dindar olmasından xəbər verir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Sizin ən xeyirliniz əxlaqı ən gözəl olanlarınızdır!"**

(7) Rəvayət edilir ki, bir gün Umeyr ibn Həbib əl-Xatmi ﵁ dedi: “İman artır və azalır”. Ondan soruşdular: “Onun artması və azalması necə olur?” Dedi: “Rəbbimizi yad etməyimiz və Ondan qorxub pis əməllərdən çəkinməyimiz imanımızın artmasına, Onu yad etməməyimiz və günah işlər görməyimiz isə imanımızın azalmasına səbəb olur”.

(8) Abdullah ibn əl-Mubarək ﵀ demişdir: “Alimlərə laqeydlik göstərən adam axirətini, rəhbərləri saymayan adam dünyasını, mömin qardaşlarına xor baxan adam da öz nüfuzunu itirər”.

Abdullah ibn əl-Mubarək ﵀ demək istəyir ki, alimlərə, rəhbərlərə və mömin insanlara xor baxan adam dünyada da, axirətdə də bədbəxt olar və ziyana uğrayar.

(9) Rəvayət edilir ki, Sufyan ibn Huseyn ﵀ demişdir: “Bir gün mən İyas ibn Muaviyənin yanında müsəlmanlardan biri haqqında pis danışdım. O məndən soruşdu: “Sən rumlulara, hindulara və sindilərə qarşı mübarizə aparmısanmı?”

Mən: "Xeyr"– deyə cavab verdim. Onda o dedi: "Rumlular, hindular və sindilər sənin dilindən qurtulmuş, mömin qardaşın isə, əksinə, sənin tənələrinə məruz qalmışdır". Bu sözdən sonra mən bir daha heç bir müsəlman haqqında pis danışmadım".

(10) Rəvayət edilir ki, Əbu Qilabə Abdullah ibn Zeyd əl-Cərəmi ﵀ demişdir: "Mömin qardaşın barəsində sənə xoşagəlməz bir xəbər söyləsələr, onun üçün üzür axtar. Əgər üzür tapmasan, özün-özünə de: "Ola bilsin ki, qardaşımın üzrü var, mən bilmirəm."

Əbu Qilabə ﵀ demək istəyir ki, Allahdan qorxan mömin adam dedi-qodulara yox, dəlillərə əsaslanmalıdır.

(11) Rəvayət edilir ki, bir gün Abdullah ibn Muhəmməd ibn əl-Kəvva yanında olan Rabi ibn Xuseymə dedi: "Biz baxırıq ki, sən heç kəsdə eyib tutmursan və heç kəsi cərh etmirsən?!" Rabi dedi: "Vay sənin halına, ey İbn əl-Kəvva! Bəzi adamlar Allahdan qorxduğunu göstərmək üçün insanların eyiblərini araşdırır, lakin öz eyiblərini unudurlar".

Rabi ibn Xuseym demək istəyir ki, insanlara irad tutan adam əvvəlcə öz eyiblərini düzəltməlidir.

(12) Rəvayət edilir ki, bir gün Abdullah ibn əl-Mubarək ﵀ dostlarından birinin fikrə daldığını görüb ondan: "Hara çatmısan?"– deyə soruşdu. Dostu da ona: "Sirata çatmışam"– deyə cavab verdi.

Sirat, Qiyamət günü Cəhənnəm üzərinə salınacaq körpüdür. Sirata qədər insanı ölüm yatağı, sonra bərzəx həyatı, sonra dirilib həşr ediləcəyi, sonra da Allahın hüzurunda sorğu-suala çəkiləcəyi gün gözləyir. Subhanəllah, görün Allahdan qorxan müsəlmanlar nəyin dərdini çəkirdilər...

(13) Rəvayət edilir ki, Malik ibn Ənəs ﵀ demişdir: "Sünnə, Nuhun ﵇ gəmisinə bənzəyir. O gəmiyə minən kimsə xilas olar, minməyən isə məhv olar".

Malik ibn Ənəs ﵀ demək istəyir ki, günahlar dəniztək təhlükəlidir, odur ki, sünnəyə riayət etməyən kəs o günahlara batıb məhv olar.

(14) Rəvayət edilir ki, Abdullah ibn Aun ﷺ demişdir: "ət-Tovbə surəsinin 43-cü ayəsində zikr olunan qınaqdan daha gözəl üslubda olan bir qınaq eşitmisinizmi? Bu ayədə Uca Allah Öz bəndəsini qınamamışdan öncə onu əfv etdiyini xəbər verib belə buyurur: **"Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmamış, yalançıları da tanımamış nə üçün onlara *cihaddan yayınmağa* izin verdin?"**

(15) Rəvayət edilir ki, Süfyan əs-Sovri ﷺ demişdir: "İslah etdiyim əməllərim arasında mənə ən ağır gələni niyyətim olub. Çünki o, tez-tez dəyişir".

Süfyan əs-Sovri ﷺ bununla demək istəyir ki, dünyadakı naz-nemətlər, şan-şöhrət və digər nəfs istəkləri insanın niyyətini korlamağa çalışır. Odur ki, onu islah etmək çox çətindir.

(16) Rəvayətə görə, Ömər ibn Abdulaziz ﷺ demişdir: "Elmsiz əməl edən adam islah etmək əvəzinə daha çox fəsad törədər".

Ömər ibn Abdulaziz ﵀ doğru söyləmişdir. Məgər tarix boyu insanlar arasında yayılmış və onlar arasına hərcmərclik salmış bidətlər və xurafatlar onların məhz elmsizcəsinə ibadət etmələrinə görə olmamışdırmı?

(17) Rəvayət edilir ki, Məsruq ﵀ demişdir: “Adamın öz elmi ilə qürrələnməsi, onun cahil sayılması üçün kifayətdir. Adamın Allahdan qorxması isə, onun elmli olması deməkdir”.

Məsruq ﵀ bildirmək istəyir ki, cahil adam özünü dartır, elmli adam isə, əksinə, təvazökar olur.

(18) Rəvayət edilir ki, Muaviyə ibn Qurra ﵀ demişdir: «Əbu Dərda ﵁ dua edib deyərdi: “Allahummə inni əsəlukə iymanən daimən və ilmən nafiən və hədyən qayyimə (Allahım, Səndən, davamlı iman, faydalı elm və səbatlı hidayət diləyirəm)”». Muaviyə sözünə davam edib dedi: “Demək, imanın davamlı olmayanı, elmin faydalı olmayanı, hidayətin də səbatlı olmayanı vardır”.

(19) Rəvayətə görə, Səid ibn əl-Museyyib ﷰ demişdir: "Mən əlli il ərzində heç bir namazın ilk təkbirini buraxmamışam və namaz əsnasında heç bir kişinin qafasına baxmamışam".

Səid ibn əl-Museyyib ﷰ demək istəyir ki, namazlarını həmişə camaatla birlikdə qılıb və həmişə namaza birinci cərgədə durub.

(20) Rəvayətə görə Abdullah ibn Məsud ﵁ demişdir: "İki şey insanı məhv edir: biri özünü bəyənməsi, biri də ümidini itirməsi".

İbn Məsud ﵁ demək istəyir ki, bir özündən razı qalıb yaxşı əməlləri tərk edən və bir də Allahın rəhmətindən ümidini kəsib tövbə etməyən kəs məhv olar.

(21) İbn Sirin ﷰ rəvayət edir ki, fitnə baş qaldırdığı zaman Səd ibn Əbu Vəqqasa ﵁ dedilər: "Niyə vuruşmursan? Axı sən xəlifəliyə namizəd olan altı nəfərdən birisən, sən xəlifə olmağa daha layiqsən". Səd ibn Əbu Vəqqas belə cavab verdi: "Mən yalnız o vaxt vuruşaram ki, mənə iki gözü, dili və iki dodağı olan, üstəlik kafiri mömindən

ayırd edən bir qılınc versinlər. Mən Allah yolunda cihad etmişəm və cihadın nə olduğunu yaxşı bilirəm. Məndən daha xeyirli kişi olduğu halda, mən bu işə qol qoya bilmərəm”.

(22) Rəvayət edilir ki, Yunus ibn Ubeyd ﷺ demişdir: “Yaxşı əməllər arasında elə bir əməl tapa bilməzsən ki, yaxşılıqların hamısı ona bağlı olsun. Yalnız dildən başqa. Bəzən görürsən ki, adam çoxlu oruc tutur, lakin yeməyinə haram qatır, habelə, gecələri namaz qılır, lakin gündüzlər yalan danışır”. Yunus ﷺ buna bənzər bir çox şeyləri də zikr etdikdən sonra dedi: “Lakin elə bir adam görə bilməzsən ki, haqq söz danışsın, sonra da bu onun əməlində öz əksini tapmasın”.

Yunus ﷺ demək istəyir ki, dil digər əzaların savab və ya günah qazanmaq xüsusunda əsas işi görür.

(23) Rəvayət edilir ki, Abdullah ibn əl-Mubarək ﷺ demişdir: “Mən Ərəfat günü axşamüstü Sufyan əs-Sovrinin yanına gəlib onun diz çöküb hönkür-hönkür ağladığını gördüm və mən

də ağlamağa başladım. O mənə tərəf dönüb dedi: "Nə olub sənə?" Dedim: "Kim bundan daha acınacaqlı halda ola bilər?" Dedi: "O kimsə ki, Allahın onu bağışlamayacağını zənn edir".

Sufyan əs-Sovri ﷺ demək istəyir ki, mömin adam heç vaxt Allahın mərhəmətindən ümidini üzməməli və Allah barədə pis zənn etməməlidir.

(24) Rəvayət edilir ki, Mucib ibn Musa əl-Əsbəhani ﷺ demişdir: "Bir dəfə mən Sufyan əs-Sovri ilə birlikdə Məkkəyə səfər etdim. Səfər zamanı mən onun tez-tez ağladığını gördüm və nəhayət, ondan: "Ey Əbu Abdullah, günahlarına görəmi ağlayırsan?"– deyə soruşdum. O kəcavənin qırağından balaca bir ağac parçası çıxardıb kənara atdı və dedi: "Günahlarım bu ağac parçasından yüngüldür. Lakin mən tövhidi itirməyimdən qorxuram".

Sufyan əs-Sovri ﷺ və onun mislində olan alimlər Allahdan tövhid üzərində, yəni təkAllahlıq etiqadında sabit qalmağı diləyər və dünya malını itirməkdən daha çox əqidələrinin dəyişməsindən qorxardılar.

(25) Mənbuz ibn Əbu Suleymanın anası rəvayət etmişdir ki, bir dəfə o Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anası Aişənin رضي الله عنها yanında ikən Aişənin azad etdiyi kəniz onun yanına gəlib dedi: "Ey möminlərin anası, mən yeddi dəfə Kəbəni təvaf etdim və iki-üç dəfə əlimi Kəbənin küncünə sürtdüm". Aişə dedi: "Allah sənə əcr verməsin, Allah sənə əcr verməsin, sən kişilərin arasına soxulmusan?! Məgər uzaqdan "Allahu Əkbər" deyib keçib getməyin kifayət etmir ki?!"

Buradan aydın başa düşülür ki, hətta xeyirli işlərdə belə qadının ixtiyari şəkildə naməhrəm kişilərə sürtünməsi qadağandır.

(26) Ömər ibn Abdulaziz رحمه الله demişdir: "Əgər insanlar üçün məqsədə çatmaq çox çətin olmuş olsaydı, onlar onu tərk edərdilər. Beləliklə də nə din qalardı, nə də dünya".

(27) Rəvayət edilir ki, Fudeyl ibn İyad رحمه الله demişdir: "Quran nazil edilmişdir ki, içində deyilənlərə əməl edilsin. İnsanlar isə sadəcə onu

oxumaqla kifayətlənmişlər". Bu sözü daha geniş izah edən Həsən əl-Bəsri ﵀ demişdir: "Bu Quranı kölələr də oxuyur, uşaqlar da. Onlar nə ona layiqincə əməl edir, nə də onun mənasını başa düşürlər. Doğrusu, Quran əhlindən olmağa ancaq o kəs layiqdir ki, Quranda buyurulanlar onun əməlində öz əksini tapsın. Uca Allah Öz Kitabında belə buyurur: **"*Bu* mübarək Kitabı sənə nazil etdik ki, *insanlar* onun ayələrini düşünüb anlasınlar və ağıl sahibləri də ondan ibrət götürsünlər".** Quranın ayələrini anlayanlardan olmaq üçün isə ona əməl etmək gərəkdir. *Saxtakar qarilərdən* biri digərinə: "Gəl, sənə Quran oxuyum, dinlə"– deyir. Vallahi, əsl qarilər belə etməzdilər. Vallahi ki, bunlar nə qari, nə də zahiddirlər. Allah camaat arasında belələrinin sayını artırmasın!"

(28) Rəvayət edilir ki, Sufyan əs-Sovri ﵀ demişdir: "Əgər yəqinlik qəlbdə lazımınca qərar tutsa, adam Cənnətə düşməyə darıxdığından dolayı sevincindən uçar, Cəhənnəm əzabından qorxduğundan dolayı da olduqca məyus olar".

Sufyan əs-Sovri رحمه الله bildirmək istəyir ki, insanın qəlbindəki yəqinlik onun axirət gününə olan imanını gücləndirir.

**29** Rəvayətə görə, Əbu Vəhb əl-Mərvəzi رحمه الله demişdir: "Mən Abdullah ibn əl-Mubarəkdən: "Təkəbbürlük nədir?"– deyə soruşdum. Dedi: "Təkəbbürlük, insanlara xor baxmağındır". Sonra soruşdum: "Bəs ucub nədir?" Dedi: "Ucub, özünü bəyənməyin və özünü başqalarından üstün hesab etməyindir. Mən namaz qılanlar arasında bu şər əməldən daha pisinin olduğunu bilmirəm".

**30** Rəvayət edilir ki, Həsən əl-Bəsri رحمه الله demişdir: "Mömin adam öz Rəbbi barədə gözəl zənn etdiyinə görə əməlləri də gözəl olur. Münafiq isə öz Rəbbi barədə pis zənnə qapıldığına görə əməlləri də pis olur".

Həsən əl-Bəsri رحمه الله bununla demək istəyir ki, insanın əməllərinin yaxşı və ya pis olması Rəbbinə olan etiqadına bağlıdır.

**31** Rəvayət edilir ki, Məsruq رحمه الله demişdir: "Mən dünyada itirdiyim heç bir şeyə görə təəssüf-

lənməmişəm. Yalnız Allaha buraxdığım səcdələrdən başqa".

Burada Məsruq رحمه الله dünyanın fani olduğunu bildirir. Hədislərin birində Rəsulullah ﷺ demişdir: **"Dünya və onun üzərindəkilər lənətlənmişdir. Yalnız Allahı zikr etmək, Onun sevdiyi əməllər, habelə elm öyrədən və elm öyrənən şəxslər istisnadır".**

32 Rəvayətə görə, Səid ibn əl-Museyyib رحمه الله demişdir: "Qırx il ərzində mən bir dəfə də olsun camaat namazını buraxmamışam".

Alimin bu sözü camaat namazının nə dərəcədə mühüm olmasına dəlalət edir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Müsəlmanlar ya camaat namazını buraxmağa son qoyacaqlar, ya da Allah onların qəlbinə möhür vuracaq və bundan sonra onlar qafillərdən olacaqlar".**

33 Rəvayət edilir ki, Utbə ibn Ğazvan رضي الله عنه demişdir: "Mən özüm-özümü böyük saymaqdan, Allah yanında isə kiçik sayılmaqdan Allaha sığınıram".

Səhabə demək istəyir ki, Allahdan qorxan adam özünü dartmamalı, öz əməlləri ilə öyünməməli, əksinə, Allahın yaradan və hər şeyə qadir olduğunu düşünərək, özünün yaradılmış bir məxluq olduğuna etiqad etməlidir.

**34** Rəvayət edilir ki, Yəhya ibn Aun ﷺ demişdir: "İbn əl-Qassar xəstə ikən mən və Səhnun ona baş çəkməyə getdik. Səhnun onun halını görüb: "Bu nə həyəcandır?"– deyə soruşdu. İbn əl-Qassar dedi: "Ölümün və Allahın hüzuruna getməyin həyəcanıdır". Səhnun dedi: "Məgər sən peyğəmbərlərin, dirilmə gününün, haqq-hesaba çəkilməyin, Cənnət və Cəhənnəmin haqq olduğuna, habelə, bu ümmətin ən fəzilətlisinin Əbu Bəkr və Ömər olduğuna, Quranın məxluq deyil, Allahın Kitabı olduğuna, Qiyamət günü möminlərin Allahı görəcəyinə, Allahın Ərşin üzərində yüksəldiyinə və bir də əmir sahiblərinə, – onlar həddi aşmış olsalar belə, itaət etməyin vacibliyinə etiqad etmirsənmi?" İbn əl-Qassar: "Vallahi, dediklərinin hamısına etiqad edirəm"– deyə cavab verdikdə, Səhnun dedi: "Elə isə arxayın ölə bilərsən!"

(35) Rəvayət edilir ki, Zuhri ﷬ demişdir: "Mən bu gün Hişam ibn Abdulməlikin hüzurunda olan adamın dediyi dörd kəlmə kimi kəlmələr eşitməmişəm". Zuhridən soruşdular: "O nə dedi ki?" Zuhri dedi: "O Hişama belə dedi: "Ey möminlərin əmiri, mənim deyəcəyim dörd kəlməni yadında saxla. Belə ki, bu kəlmələr sayəsində sən öz əməllərini islah edəcək, rəiyyətin də özlərini düzəldəcəkdir". Hişam: "Söylə görək!"– deyə buyurdu. Adam dedi: "Gücün çatmayan bir işi yerinə yetirəcəyinə dair söz vermə. Yüksəlişin asan olması səni aldatmasın, çünki eniş çala-çuxurludur. Bil ki, əməllərin cəzası var, elə isə onların aqibətindən qorx. Və bir də qəfil başına gələ biləcək işlər var, odur ki, ehtiyatlı ol!"

(36) Rəvayət edilir ki, Həmmad ibn Zeyd ﷬ demişdir: "Əyyub əs-Sixtiyani bir kimsəyə övladı dünyaya gəlməsi münasibətilə gözaydınlığı verəndə deyərdi: "Cəaləhullahu mubarakən aleykə və alə umməti Muhəmmədin ﷺ (Allah onu sənin üçün də, üstəlik Muhəmmədin ﷺ ümməti üçün də bərəkətli etsin!)".

(37) Rəvayət edilir ki, Mutarrif ibn Abdullah ibn əş-Şixxir ﷺ demişdir: "Allahım, Sənin mənə öyrətdiklərin sayəsində kimsənin məndən daha xoşbəxt olacağından, habelə, mənim başqası üçün ibrət olmağımdan Sənə sığınıram!"

Bu dua, həqiqətən də olduqca möhtəşəm bir duadır. Belə ki, kim bildiyinə əməl etməsə, onun dinə dəvət etdiyi insanlar onun dediklərinə əməl etməklə ondan daha üstün və daha xoşbəxt olacaq, eləcə də kim özündən əvvəlkilərin başına gələnlərdən ibrət götürməsə, başqaları üçün pis mənada ibrət olacaq.

(38) Rəvayət edilir ki, Mutarrif ibn Abdullah ibn əş-Şixxir ﷺ demişdir: "Mən xeyirlərin hamısını özündə cəm edən əməl barədə düşündüm. Xeyirli əməllər çoxdur – namaz, oruc və s. kimi. Baxdım ki, bu xeyirli əməllərə müvəffəq olmaq Allahın istəyinə bağlıdır. Allahın əlində olan xeyirə nail olmaq üçün isə ancaq Allaha yalvarmaq gərəkdir. Deməli, xeyirlərin hamısını özündə cəm edən əməl duadır".

39 Rəvayətə görə, Ömər ibn Abdulaziz ﵀ demişdir: “Kim öz dinini mübahisə üçün hədəf edərsə, tez-tez fikrini dəyişər”.

Allah Ömər ibn Abdulazizə rəhmət etsin! Həqiqətən də, kim elmsiz olaraq dini məsələlərdə mübahisəyə girişərsə, qəlbi sərtləşər, imanı zəifləyər, həyası əldən gedər, tez-tez bir fikirdən başqa fikrə düşər və heç vaxt əqidəsi sabit qalmaz.

40 Rəvayət edilir ki, Mərvəzi ﵀ demişdir: «Əhməd ibn Hənbəldən soruşdular: “Bir adamın beş yüz dirhəm pulu var. Onu Allah yolunda olan cihada sərf etsə yaxşıdır, yoxsa elm öyrənməyə?” İmam Əhməd ﵀ dedi: “Əgər cahildirsə, əlbəttə ki, elm öyrənməsi daha yaxşıdır”».

41 Rəvayət edilir ki, Həsən əl-Bəsri ﵀ demişdir: “Bəzən dində fəqih olan birisi camaat arasında oturarkən, bəziləri onun savadsız olduğunu güman edir, halbuki o, məşhurlaşmaq istəmədiyi üçün özünü elə göstərir”.

Alim bununla demək istəyir ki, Allah üçün elm öyrənən kimsə elmini şan-şöhrətə çatmaq

üçün deyil, yalnız Allah rizasını qazanmaq üçün sərf edər.

42 Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Uca Allah ruzini sizin aranızda paylaşdırdığı kimi, əxlaqı da sizin aranızda paylaşdırmışdır".

Səhabə bildirmək istəyir ki, ruzi kimi əxlaq da Allahın insanlara bəxş etdiyi nemətlərdəndir. Allah onu istədiyinə bəxş edir. Odur ki, insan ruzi əldə etmək üçün çalışdığı kimi, əxlaqını da düzəltməyə çalışmalıdır. Bu işdə adam əsas iki şeyə diqqət yetirməlidir. Birincisi, Allaha təvəkkül etməli, ikincisi isə bunu şəriətin buyuruqlarına uyğun şəkildə yerinə yetirməldir.

43 Rəvayət edilir ki, Sufyan ibn Uyeynə رحمه الله demişdir: "Əgər mən gündüzləri veyil-veyil gəzsəm, gecələri də qəflətdə keçirsəm, o zaman yazdığım kitabların nə faydası olacaq?"

Sufyan ibn Uyeynə رحمه الله bildirmək istəyir ki, alimin elmi onun davranışında və əxlaqında öz əksini tapmalıdır. Əks halda onun bildikləri Qiyamət günü ona dərd olacaq.

(44) Rəvayətə görə, Səid ibn əl-Museyyib ﷺ demişdir: "Halal yolla var-dövlət qazanmaq istəməyən kimsədə xeyir olmaz. Belə ki, əgər adamın halal mal-dövləti olsa, başqalarına möhtac olmaz, bu dövlət sayəsində qohum-əqrəbası ilə əlaqə saxlayar və bundan onlara da verər".

Alim bu sözü ilə halal yolla ruzi qazanmağın nə dərəcədə əhəmiyyətli olduğunu bildirmək istəyir.

(45) Rəvayət edilir ki, Tavus ibn Keysan ﷺ demişdir: "Gözəl əxlaq Allahın bəxş etdiyi nemətlərdəndir – Allah onu istədiyinə bəxş edər. Belə ki, Allah bir adama xeyir nəsib etmək istədikdə, onu gözəl əxlaq sahibi edər".

Həqiqətən də, əxlaqlı olmaq insana böyük savab qazandırır. Bu xüsusda hədislərin birində Peyğəmbər ﷺ demişdir: **"Mömin adam öz gözəl əxlaqı ilə *gündüz* oruc tutub, *gecə* namaz qılan kimsənin dərəcəsinə yüksəlir".**

(46) Rəvayət edilir ki, Qazı Şureyh ﷺ demişdir: "Mənim başıma müsibət gəldikdə, buna görə

mən dörd kərə Allaha həmd edirəm: həmd edirəm ki, başıma bundan daha böyük müsibət gəlmədi; həmd edirəm ki, Allah mənə bu müsibətə səbir etməyi nəsib etdi; həmd edirəm ki, bu müsibət gəldikdə, O mənə: "İnnə lillahi və innə iləyhi raciun!" deməyi müvəffəq etdi; və bir də həmd edirəm ki, bu müsibəti mənim dinimə yox, dünyama aid etdi".

(47) Rəvayət edilir ki, İmam Əhməddən ﷺ soruşdular ki, bir adam hədisin ali dərəcədə olan isnadını əldə etmək üçün səfərə çıxmır və onun aşağı dərəcədə olan insadı ilə kifayətlənir (yəni hədisi böyük alimlərdən yox, onlardan eşitmiş kimsələrdən öyrənməklə kifayətlənir). İmam Əhməd dedi: "Elmi bu tərzdə öyrənmək olmaz. Bu tərzdə öyrənilən elm puç olar. Elmi böyük alimlərdən öyrənmək gərəkdir".

İndi gəlin bir düşünək: əgər böyük alimlərdən elm götürməyən adam məhv olursa, bəs onda görəsən alimlərə istehza edən və onları söyən adamların sonu necə olur?

(48) Rəvayət edilir ki, Əhməd ibn Bişr ibn Səid əl-Kindi ﷺ demişdir: "Mən Əhməd ibn Hənbələ dedim: "Bir nəfər həm Quran oxuyub əzbərləyir, həm də hədis yazmaq üçün mühəddislərin yanına gedir. Ancaq Quran oxumaq və onu əzbərdən başqasına danışmaq üçün məscidə getdikdə, hədis öyrənməyə vaxtı qalmır. Yəni hədis öyrənməyə getdikdə məsciddən qalır, məscidə getdikdə isə hədis öyrənməkdən qalır. Beləsinə nə nəsihət edə bilərsən?" İmam Əhməd ﷺ dedi: "Hər ikisinə vaxt ayırmalıdır". Mən sualımı bir neçə dəfə təkrar etdim, o isə eyni cavabı verib dedi: "Hər ikisinə vaxt ayırmalıdır".

(49) Rəvayət edilir ki, Sufyan ibn Uyeynə ﷺ demişdir: "Ağıllı adam o kimsə deyil ki, nəyin xeyirli, nəyin də şər olduğunu bilsin. Ağıllı adam o kəsdir ki, əməlin xeyirli olduğunu bildikdə onu yerinə yetirsin, şər olduğunu bildikdə də ondan çəkinsin".

Sufyan ibn Uyeynə ﷺ demək istəyir ki, əməlsiz elmli olmağın heç bir faydası yoxdur.

(50) Rəvayət edilir ki, Səid ibn Cubeyr ﷺ demişdir: "Kim bir adamın üzərində gördüyü təmiməni qırıb atarsa, bu, kölə azad etməyə bərabər olar".

Təmimə, insanın gözdəymədən qorunmaq, yaxud xeyir əldə etmək və ya şərdən qorunmaq məqsədilə boynuna, yaxud yaxasına asdığı və ya qoluna taxdığı muncuq və sairədir. Əlbəttə ki, bir adamı şirkdən xilas etmək, onu köləlikdən azad etməkdən daha xeyirlidir.

(51) Rəvayət edilir ki, Sufyan əs-Sovri ﷺ demişdir: "Savadsız abidin və bir də fasiq alimin fitnəsindən Allaha sığının! Çünki bu iki sinif insanın fitnəsi insanları fitnəyə məruz qoyur".

İbn əl-Qeyyim ﷺ bu sözü belə izah etmişdir: "İnsanlar ya alimlərdən, ya da abidlərdən ibrət götürər. Əgər alimləri fasiq, abidləri də cahil olarsa, o zaman onların ucbatından hamıya müsibət üz verər və bu fitnə böyüyüb hər kəsi ağuşuna alar".

(52) Abdullah ibn Abbas ﵄ demişdir: "Tənbəl adam camaat namazına durmaq istəmir. Lakin gülərüzlü, böyük istəyi olan və fərəh hissi duyan kimsələr bu namazı tərk etmirlər. Beləsi Allaha xitab edir, Allah da ona tərəf üz tutub onun günahlarını bağışlayır və onun dualarını qəbul edir. Sonra İbn Abbas ﵄ bu ayəni oxudu:

﴿ وَإِذَا قَامُوا إِلَى الصَّلَاةِ قَامُوا كُسَالَى ﴾

**"Onlar namaza durarkən könülsüz qalxar-lar".**

Bu ayə münafiqlər barədə nazil olub. Camaatla birlikdə namaz qılmağa tənbəllik etmək qəlbin zəifliyindən və namaza dəyər verməməyindən irəli gəlir. Əgər insanlar namazın əzəmətini və dəyərini bilsələr, onu tərk etməzlər.

(53) Rəvayət edilir ki, Fudeyl ibn İyad ﵀ demişdir: "Sən Allahdan nə qədər qorxub pis əməllərdən çəkinəcəksənsə, insanlar da səndən bir o qədər çəkinəcəklər".

Fudeyl ibn İyad ﷬ demək istəyir ki, insanın Allaha olan qorxusu artdıqca, insanlar arasında heybəti də artır.

(54) Rəvayət edilir ki, Vəhb ibn Munəbbihdən ﷬ soruşdular: “Məgər “la ilahə illəllah” kəlməsi Cənnətin açarı deyilmi?” O dedi: “Elədir, lakin hər bir açarın dişləri vardır. Və əgər sən dişli bir açar gətirsən, o sənin üçün bu qapını açar, əks halda, açmaz”.

Həmçinin, Həsən əl-Bəsridən ﷬ soruşdular: “Bəzi adamlar deyirlər ki, kim: “la ilahə illəllah” desə, Cənnətə daxil olar”. O belə cavab verdi: “Kim: “la ilahə illəllah” desə, sonra da bu kəlmənin haqqını ödəsə və buna aid olan vacibləri yerinə yetirsə, Cənnətə daxil olar”.

(55) Rəvayət edilir ki, Sufyan əs-Sovri ﷬ demişdir: “Adamın əməllərinin düzəlməsinə və ya korlanmasına səbəb olan ən böyük amil dostdur”.

Sufyan əs-Sovri ﷬ bu sözünü Peyğəmbərin ﷺ hədisindən götürmüşdür. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **“Yaxşı dostla pis dostun**

**məsəli ətir satanla körük vuranın məsəlinə bənzəyir. Ətir satana gəlincə, ya o sənə ətir hədiyyə edər, ya sən ondan ətir alarsan, ya da ondan gözəl iy gəldiyini duyarsan. Körük vurana gəldikdə isə, ya o sənin paltarını yandırar, ya da ondan pis iy gəldiyini duyarsan”.**

56 Rəvayət edilir ki, Əbul-Muleyh رحمه الله demişdir: «Mən Məymunun رحمه الله belə dediyini eşitmişəm: “Mənim hər şəhərdə soraqladığım kəslər məhz alimlərdir. Onlar mənim axtardığım kəslərdir. Mən qəlbimin məhz alimlərin yanında islah olduğunu görmüşəm”».

Burada Məymun رحمه الله Allahdan qorxan alimlərin fəzilətini bildirir. Həqiqətən də, məhz alimlər insanlara doğru yol göstərən və onları zəlalətdən çəkindirən kimsələrdir.

57 Rəvayət edilir ki, İbn əz-Zubeyrin رضي الله عنه dövründə fitnə baş qaldırdığı zaman iki nəfər İbn Ömərin رضي الله عنه yanına gəlib dedi: “Camaat əmirə qarşı üsyan edir. Sən, ey İbn Ömər, Peyğəmbərin صلى الله عليه وسلم səhabəsisən, sənə əmirə qarşı çıxmağa

mane olan nədir?" İbn Ömər dedi: "Mənim əmirə qarşı çıxmamağımın səbəbi odur ki, Allah, qardaş qanını axıtmağı haram buyurmuşdur". O iki nəfər dedi: "Məgər Allah buyurmur ki: "Fitnə aradan qalxana qədər onlarla vuruşun..."? İbn Ömər dedi: "Biz vuruşardıq ki, fitnə aradan qalxsın və din tamamilə yalnız Allaha həsr edilsin. Siz isə fitnənin yayılması və dinin Allahdan başqasına həsr edilməsi üçün vuruşursunuz".

(58) Rəvayət edilir ki, Bəkr ibn Abdullah ﷺ demişdir: "İbn əl-Əşəsin fitnəsi baş qaldırdığı zaman Talq ibn Həbib dedi: "Allahdan qorxaraq bu fitnədən çəkinin!" Mən dedim: "Təqvanın nə olduğunu qısa şəkildə bizə anlat". Talq dedi: "Təqva, Allahın nuru üzərində, Kitab və Sünnəyə uyğun tərzdə Allahın rəhmətinə ümid edərək Allaha itaət etmək, habelə, Allahın nuru üzərində, Allahın əzabından qorxaraq Allaha asi olan işlərdən çəkinməkdir".

(59) Rəvayət edilir ki, Həsən əl-Bəsri ﷺ demişdir: "Mömininin ticarət dövriyyəsindəki

sərmayəsi onun dinidir – sərmayəni itirərsə, dinini itirmiş olar. Mömin adam öz dinini nə geridə buraxar, nə də ki, bir kimsənin ümidinə qoyar".

Həsən əl-Bəsri ﵀ demək istəyir ki, mömin üçün din, əsl qazanc mənbəyidir və o öz dini ilə ciddi məşğul olmalı, dinin tələblərini yerinə yetirməlidir. Əgər o, bu qazanc mənbəyi ilə özü məşğul olmayıb onu başqasının ümidinə buraxarsa, ziyana uğrayanlardan olar.

(60) Rəvayətə görə, Səllam ibn Əbu Muti ﵀ demişdir: "Bəsrənin şeyxlərindən olan Səid ibn İyas əl-Cəriri həcc ziyarətindən qayıtdıqda, biz onun evinə getdik. O, ziyarətdən söhbət açarkən dedi: "Bu səfərimizdə Allah bizə filan, filan nemətləri bəxş etdi". Sonra davam edib dedi: "Əvvəllər deyərdilər ki, Allahın bəxş etdiyi nemətləri sadalayıb yada salmaq, şükr etmək deməkdir".

(61) Rəvayət edilir ki, Yəhya ibn Səid ﵀ demişdir: "Bizə bəllidir ki, hər kim yaşlı bir adamı təhqir edərsə, Allah həmin adamın qocalığında onu

təhqir edəcək birisini onun başına bəla etməyincə canını almaz".

Alim demək istəyir ki, kim nə pislik etsə, etdiyi əməli öz qabağına çıxar. Həqiqətən də, yaşlı adamların qayğıya daha çox ehtiyacı olur. Kim onların qeydinə qalarsa, gələcəkdə Allah onun qarşısına onun özü kimi xeyirxah insan çıxarar, o da onun qeydinə qalar, əks halda isə, ona özü kimi yaramaz insanı rast gətirər.

62 Rəvayətə görə, Yəhya ibn Əbi Kəsir ﷺ demişdir: "Əgər sən bir adamın öz dilini pis sözlərdən qoruduğunu və bir də namazlarını vaxtlı-vaxtında qıldığını görsən, bil ki, o adamda çoxlu xeyir var".

Yəhya ibn Əbi Kəsir ﷺ demək istəyir ki, dili qorumaq və namazları vaxtlı-vaxtında qılmaq əməlisaleh insanlara xas olan xislətlərdəndir.

63 Rəvayət edilir ki, Sabit ibn Ubeyd ﷺ demişdir: "Mən Zeyd ibn Sabit kimi, camaat yanında özünü ciddi aparan, evində isə zarafatcıl olan ikinci bir adam görməmişəm".

Zeyd ibn Sabit ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir və bu əməli ilə müsəlman ümmətinə nümunədir. Əlbəttə ki, mömin adam özünü harada necə aparacağına diqqət etməli və hər bir haqqı olan kimsənin haqqını layiqincə ödəməlidir.

**64** Rəvayət edilir ki, Həsən əl-Bəsri ﷺ demişdir: “Mömin yaxşı işlər görməyi və *Allahdan* qorxmağı, münafiq isə pis işlər görməyi və arxayın olmağı *özündə* cəm etmişdir”.

Həsən əl-Bəsri ﷺ demək istəyir ki, mömin adam saleh əməllər etsə də, o əməllərin qəbul olub-olmaması xüsusunda Allahdan qorxur, münafiq isə əksinə, pis əməllər edir və Allahın onu bağışlayacağına arxayın olur. Əgər biz səhabələrin və onların yolunu gedən əməlisaleh möminlərin həyat tərzinə nəzər salsaq, görərik ki, onlar Allahın və Peyğəmbərinin ﷺ buyurduqlarını tam şəkildə yerinə yetirər və bununla belə, o əməllərin qəbul olunmayacağından qorxardılar.

**65** Rəvayət edilir ki, Əbu Səid əl-Xarraz ﷺ demişdir: “Faydalı elm o elmdir ki, səni Allaha

ibadət və itaət etməyə sövq etsin. Həqiqi yəqinlik də o yəqinlikdir ki, səni Allaha doğru aparar".

Əbu Səid əl-Xarraz ﷺ demək istəyir ki, əgər adam faydalı elmə və həqiqi yəqinliyə nail olarsa, daim Allahdan qorxub yaxşı işlər görər.

(66) Rəvayət edilir ki, Həsən əl-Bəsri ﷺ demişdir: "Yol göstərən adamla məşvərət edən kimsə peşman olmaz".

Alimin sözündən aydın başa düşülür ki, hər yoldan keçənlə məşvərət edilməz. Adam hər hansı bir işi görmək istədikdə, yalnız təcrübəsi və savadı olan kimsələrlə məşvərət etməlidir.

(67) Rəvayət edilir ki, Yəhya ibn Əbi Kəsir ﷺ demişdir: "Əvvəllər deyərdilər ki, insanların özlərinə göstərdiyi ən böyük ehtiram Allaha itaət etmək, öz əleyhlərinə etdikləri ən böyük həqarət isə Allaha asi olmaqdır".

Demək, kim Allaha ibadət və itaət etsə, özünə yaxşılıq edər və öz nəfsini təmizə çıxarar, kim də günah işlər görərsə, özünü hörmətdən salar və ziyana uğrayar.

68 Rəvayət edilir ki, Abdulhəmid ibn Abdullah ibn Muslim ibn Yəsar رحمه الله demişdir: «İbn Sirin həbsdə ikən həbsxananın gözətçisi ona dedi: “Gecə düşdükdən sonra ailənin yanına get, səhər açılanda gələrsən. Heç kəsin bundan xəbəri olmayacaq”. İbn Sirin isə ona belə cavab verdi: “Sənin əmirə xəyanət etdiyin bu işdə mən sənə yardım edə bilmərəm”».

69 Rəvayət edilir ki, Əli ibn Əbu Talib رضي الله عنه demişdir: “Adam yalnız Allaha ümid bağlayar və yalnız öz günahlarından həzər edər”.

Səhabə demək istəyir ki, mömin adam ancaq Allahın mərhəmətinə ümid edər və ancaq etdiyi günahlara görə haqq-hesaba çəkiləcəyindən qorxar. Hədislərin birində xəbər verilir ki, bir gənc ölüm yatağında ikən Peyğəmbər ﷺ ona baş çəkmiş və ondan: “Özünü necə hiss edirsən?”– deyə soruşmuş, o gənc də: “Ya Rəsulullah, mən Allaha ümid edir və günahlarıma görə qorxuram”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ belə demişdir: **“Bu iki xisləti qəlbində cəm edən elə bir mömin yoxdur**

**ki, Allah ona onun ümid etdiyini vermiş, qorxduğundan da qorumuş olmasın".**

(70) Rəvayətə görə, Əbu Qilabə ﷺ demişdir: "Dində bidətə qapı açan hər kəs cəzalandırılmağa layiqdir".

Alimin sözündən aydın başa düşülür ki, Allahın dininə yenilik əlavə edən hər bir bidətçi etdiyi günahın ağırlığına uyğun cəzalandırılmalıdır. Beləsinin ən böyük cəzası isə Cəhənnəm əzabıdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Görülən işlərin ən pisi dinə əlavə edilən yeniliklərdir. Hər bir yenilik bidətdir, hər bir bidət zəlalətdir və hər bir zəlalət də Cəhənnəm oduna aparan bir səbəbdir".**

(71) Rəvayət edilir ki, Abdullah ibn Aun ﷺ heç vaxt qəzəblənməz və birisi onu qəzəbləndirdiyi zaman deyərmiş: "Bərakəllahu fik (Allah sənə bərəkət versin!)".

Alimin müdrikliyinə diqqət edin! Əlbəttə ki, belə məqamda səbir etmək və pislik edən adama pisliyinin əvəzinə onun üçün xeyirli dua etmək,

dua edən adamın gözəl əxlaq sahibi olduğuna dəlalət edir.

(72) Rəvayətə görə, Suleyman ibn Yəsar ﷺ demişdir: "Səfərə hazırlaşan bir toplum adam yola düşməyə hazırlaşarkən dua edib belə dedilər:

﴿ سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ ﴾

**"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".** Bu vaxt onların arasında dəvəsi yerindən ləng tərpənən bir kişi dedi: "Lakin mən dünəndən bəri bu dəvəni əhliləşdirməklə məşğulam". Elə bunu deyər-deməz, dəvə yerindən götürüldü və adam onun üstündən yıxılıb boynunu sındırdı".

Bu rəvayətdən götürüləcək ibrət budur ki, adam öz gücünə və təcrübəsinə arxayın olmamalı, hər bir işdə Allaha güvənməlidir.

73 Rəvayət edilir ki, bir dəstə adam Əbu Hazim Sələmə ibn Dinarın ﷺ yanına gəlib dedi: "Ey Əbu Hazim, məgər sən qiymətlərin qalxdığını görmürsən?!" Əbu Hazim də onlara belə cavab verdi: "Buna görə niyə kədərlənirsiniz ki?! Qiymətlərin aşağı olduğu vaxt bizə ruzi verən Allah, qiymətlər artdığı vaxtda da bizə ruzi verəcək".

74 Rəvayətə görə, Abdulvahid ibn Zeyd ﷺ Həsən əl-Bəsriyə ﷺ dedi: "Ey Əbu Səid, İbn əl-Muhəlləb ibn Əbu Safranın fitnəsinə baş qoşmamış, lakin qəlbi ilə onun əməlindən razı qalmış və dili ilə onu dəstəkləmiş adam haqqında nə deyə bilərsən?" Həsən əl-Bəsri məndən soruşdu: "Qardaş oğlu, Saleh peyğəmbərin möcüzə olaraq gətirdiyi dəvəni neçə adam kəsmişdir?" Mən: "Bir nəfər"– deyə cavab verdim. Onda o dedi: "Məgər onun bu əməlindən razı qalan və onu dəstəkləyən qövm onunla bərabər həlak olmadımı?"

Alimin sözündən aydın başa düşülür ki, şər əməlli insanların etdiyindən razı qalan və onlara mənəvi dəstək olan hər kəs onlar kimi günahkar sayılırlar.

(75) Rəvayət edilir ki, Abdullah ibn əl-Mubarək ﷀ demişdir: “Mən, peyğəmbərlikdən sonra, elm öyrətmək qədər fəzilətli olan başqa bir əməl bilmirəm”.

Alimlər peyğəmbərlərdən sonra ən fəzilətli insanlardan sayılırlar. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Alimlər peyğəmbərlərin varisləridir. Həqiqətən də, peyğəmbərlər özlərindən sonra nə bir dinar, nə də bir dirhəm qoyarlar. Qoyub getdikləri miras isə elmdir”.**

(76) Rəvayət edilir ki, Əbu Dərda رضي الله عنه demişdir: “Kim elm dalınca getməyi cihaddan hesab etmirsə, deməк, onun ağlında və düşüncəsində naqislik var”.

Əbu Dərda رضي الله عنه demək istəyir ki, elm öyrənən adam istənilən düşmənlə – istər şeytanla, istər nəfsi ilə, istər bidət əhli ilə, istərsə də əlinə silah almış düşmənlə vuruşmağa qadir olur. Elmsiz olduqda isə, haqq ilə batili ayırd edə bilmir və bir çox hallarda, düşmən dura-dura, silahı özünün din qardaşına tərəf çevirir.

(77) Rəvayət edilir ki, İmam Şafii ﷺ demişdir: "Əgər Axirət günü fəqihlər Allahın dostları sayılmayacaqlarsa, onda bəs kim Allahın dostu sayıla bilər?!"

Şafii ﷺ demək istəyir ki, Allahdan qorxan alimlər övliya, yəni Allahın dostları hesab olunurlar.

(78) Rəvayət edilir ki, Malik ﷺ demişdir: "Bəzi müsəlmanlar sadəcə ibadətlə məşğul olub elm öyrənməkdən vaz keçmiş və savadsızlıqları üzündən Muhəmmədin ﷺ ümmətinə qarşı qılınc çəkmişlər. Əgər onların elmi olsaydı, qardaş qanını axıtmazdılar".

Malik ﷺ burada savadsız xəvariclərі qəsd edir. Hədislərin birində Peyğəmbər ﷺ onları belə vəsf etmişdir: **"Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcək. Onlar ən xeyirli sözləri danışacaq, lakin ox ovunu dəlib keçdiyi kimi, İslamdan çıxacaqlar. İman onların xirtdəklərindən o yana keçməyəcək"**.

(79) Rəvayət edilir ki, Abdullah ibn Aun ﷺ demişdir: "Düşünürəm ki, adam yalnız öz eyib-

lərindən qafil olduğu zaman insanların eyiblərini araşdırmağa başlayar".

Aun ﷺ doğru söyləmişdir. Həqiqətən də, bəzi adamlar başqalarının gözündə çöp axtarır, özlərinin gözündəki kötüyü isə unudurlar.

80 Rəvayətə görə, Abdussaməd ibn Yezid əl-Bağdadi demişdir: "Mən Fudeyl ibn İyadın belə dediyini eşitdim: "Bilsəydim ki, mənim bir duam qəbul olacaq, onu əmir sahibinin islah olunmasına yönəldərdim". Ondan soruşdular: "Bunun səbəbi nədir, ey Əbu Ali?" Fudeyl dedi: "Əgər mən özüm üçün dua etsəm, onun mənə elə də böyük faydası olmaz. Lakin əmir sahibinin islah olması, rəiyyətin və məmləkətin islah olmasına səbəb olar". Yenə soruşdular: "Bu necə olur, ey Əbu Ali? Bunu bizə izah et". Fudeyl dedi: "Məmləkətin düzəlməsi belədir ki, insanlar rəhbərin onlara qarşı haqsızlıq etməyəcəyindən əmin olsalar, xarabalıqları abadlaşdırar, atılmış sahələri əkib-becərər, beləliklə də, məmləkət çiçəklənər. İnsanların islah olunmasına gəlincə, əmir sahibi onların cahil təbəqəsinə nəzər salıb deyər: "Dünya

işləri bunları Quran və başqa bu kimi faydalı elmlər öyrənməkdən yayındırıb". Sonra da göstəriş verər ki, bu adamları əlli-əlli, yaxud bundan çox və ya bundan az siniflərə ayırıb hücrələrə yerləşdirsinlər. Sonra savadlı bir adamı çağırıb deyər: "Sənə kifayət qədər zəhmət haqqı veriləcək, gərək bu adamlara dini öyrədəsən. Həm də bax gör, Allah onların arasından kimə sadəcə torpağı əkib-becərmək qabiliyyəti vermişdirsə, onları öz işləri ilə məşğul edək (yəni, qoy yerdə qalanları da elmlə məşğul olsun)". Fudeyl sözünə davam edib dedi: "Beləliklə də həm rəiyyət, həm də məmləkət düzələr".

(81) Rəvayət edilir ki, Abdullah ibn Aun ﵀ demişdir: "Qoy sizlərdən öz nəfsini qınayan kimsə deməsin ki, məndə xeyir yoxdur. Çünki biz müsəlmanlarda tovhid əqidəsi var. Əgər adam öz nəfsini qınamaq istəyirsə, qoy desin: "Qorxuram, məndə olan şər əməl məni məhv eləsin!"

Burada alim adamın öz nəfsi haqqında belə deməsini məsləhət görmür. İndi bir düşünün, adamın başqa bir müsəlman haqqında: "Filankəsdə xeyir yoxdur"– deməsi necə böyük qəbahətdir.

(82) Rəvayət edilir ki, İbrahim ət-Teymi ﷺ demişdir: "Bir anlıq düşündüm ki, Cənnətdəyəm – oradakı meyvələrdən yeyir, çeşmələrdən içir və huriləri qucaqlayıram. Daha sonra düşündüm ki, Cəhənnəmdəyəm – oradakı zəqqumdan yeyir, irindən içir, əl-ayağıma və boynuma vurulmuş zəncirləri və buxovları da açmağa çalışıram. Sonra nəfsimdən soruşdum: "Ey nəfsim, nə istəyirsən?" Nəfsim də mənə belə cavab verdi: "İstəyirəm dünyaya qayıdam və yaxşı işlər görəm". Onda mən dedim: "Hal-hazırda sən dünyada əminlik içindəsən, elə isə yaxşı işlər gör!"

(83) Rəvayət edilir ki, Yəhya ibn Muaz ər-Razi ﷺ demişdir: "Allah rizası üçün olan sevgi nə yaxşılığa görə artar, nə də pisliyə görə azalar".

Yəhya ﷺ demək istəyir ki, Allah üçün olan sevgi dünya mənfəətinə bağlı olmamalıdır. Yəni, bir adamı, onun sənə etdiyi yaxşılığa görə sevməyin, yaxud da başqa bir səbəbdən ona nifrət etməyin Allah rizası üçün olan sevgiyə aid deyil. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Kim Allah rizası üçün sevər, Allah rizası üçün nifrət edər,**

**Allah rizası üçün verər və Allah rizası üçün alarsa, imanını kamilləşdirmiş olar".**

(84) Rəvayət edilir ki, Muhəmməd ibn Kəb əl-Qurəzi ﵀ demişdir: "Allah bir kimsəyə xeyir nəsib etmək istədikdə, ona üç xislət nəsib edər: dini məsələləri başa düşməyi, dünya işlərində zahid olmağı və bir də öz eyiblərini görməyi".

(85) Rəvayət edilir ki, Adiy ibn Ərtat ﵀ demişdir: «Bir kişinin öz oğluna nəsihət etdiyinə siz də əməl edin. O belə nəsihət etmişdir: "Oğlum, namaz qıldığın zaman elə düşün ki, sanki son namazını qılırsan və bundan sonra öləcəksən. Bir də ki, oğlum, gəl Cəhənnəmin qarşısında durub bu dünyaya qayıtmağı və yaxşı işlər görməyi təmənna edən kimsələr tək, yaxşı işlər görməyi təmənna edək"».

(86) Rəvayətə görə, Əbul-Aliyə ər-Riyahi ﵀ demişdir: "Allah mənə iki nemət bəxş etmişdir ki, mən bunlardan hansının daha böyük olduğunu bilmirəm. Birincisi, Allahın məni müsəlman olmağa

müvəffəq etməsi, ikincisi isə məni hərurilərdən etməməsidir".

"Hərurilər" xəvariclərin bir qolu, Nəcdə ibn Amir əl-Hərurinin havadarlarıdır. "Xəvaric" deyildikdə, müsəlman camaatından ayrılıb özünə dəstə yaradan və ya belə bir dəstəyə qoşulan, dəlil-sübutsuz olaraq böyük günah sahibini kafir hesab edən və onların qanını halal sayan fasiqlər nəzərdə tutulur. Bu firqə müsəlmanlar arasında meydana gəlmiş ilk batil firqədir.

(87) Rəvayət edilir ki, Məczəətu ibn Zahir ﵀ demişdir: "Ağac altında beyət etmiş səhabələrdən olmuş Uhban ibn Ovsun dizləri ağrıdıqda, namaz qılarkən dizlərinin altına döşəkçə qoyardı".

Burada alim bildirmək istəyir ki, səhabə üçün səcdəyə getmək nə qədər çətin olsa da, o, Allah qarşısında səcdə edər və ağrı hiss etməsin deyə, dizinin altına döşəkçə qoyarmış. Bir çoxları isə belə döşəkçəni başının altına qoyub namazı buraxırlar.

(88) Vədın ﵀ rəvayət etmişdir ki, bəzi şeyxlər saqqalı çıxmamış gözəl oğlan uşağının üzünə baxmağı qadağan edərdilər.

Subhanəllah, alimlərin fəhminə bir baxın! Onlar fitnə qapısını açmağı qadağan edirlər. Belə ki, şəhvət hissi ilə oğlan uşağının üzünə baxan fasiq, sonradan onunla yaxınlıq etmək fikrinə düşə bilər. Bunu etmək isə sahibini lənətə məruz qoyan ən böyük günahlardan sayılır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Lut qövmünün əməli kimi əməl edən kimsələrə Allah lənət etmişdir".**

(89) Rəvayət edilir ki, Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Tələskən, şayiələr yayan və sirr saxlamayan kimsələrdən olmayın! Yoxsa başınıza şiddətli, məyusedici bir bəla gələr və davamlı, böyük bir fitnəyə düçar olarsınız".

Möminlərin əmiri burada üç şeydən çəkindirir. Belə ki, tələsmək şeytandandır, şayiə yaymaq adamı həm qəbir, həm də axirət əzabına düçar edəcək amillərdəndir, sirr saxlamamaq isə əmanətə xəyanət etmək deməkdir.

(90) Rəvayət edilir ki, Sufyan ibn Uyeynə رحمه الله deyərmiş: "Rəsulullah ﷺ *bəşəriyyət üçün* ən böyük meyardır. Bütün işlər onunla – onun əxlaqı, həyat

tərzi və tutduğu yolla müqayisə edilir. Bu meyara müvafiq olan işlər haqq, ona müxalif olanlar isə batil sayılır".

(91) Rəvayət edilir ki, Abdulməlik ibn Umeyr ﷺ demişdir: "Quran oxuyan kimsələrin daim ağlı başında olar".

Alim demək istəyir ki, kim mütəmadi olaraq Quran oxuyarsa, qocalığında belə ağlı çaşmaz, nə danışdığının və nə hərəkət etdiyinin fərqində olar.

(92) Rəvayətə görə, Abdullah ibn Şəvzəb ﷺ demişdir: "Bir gün bir dəstə adam oturub nemətlərdən hansı birinin ən fəzilətli nemət olduğunu müzakirə etdilər. Onlardan biri: "Ən fəzilətli nemət, Allahın bizim günahlarımızın üstünə örtük çəkməsidir"– dedi, digərləri də bunun həqiqətən də ən fəzilətli nemətlərdən olduğunu etiraf etdilər".

Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Məhşər günü Allah mömini Özünə tərəf yaxınlaşdıracaq, sonra onun günahlarının üstünə örtük çəkəcək və ona buyuracaq: "Filan günahı etdiyini bilirsənmi? Filan günahı etdiyini bilirsənmi?" Mömin: "Bəli,**

**ey Rəbbim!"– deyə cavab verəcək. Beləcə, Allah ona günahlarının hamısını etiraf etdirəcək və o, həlak olduğunu güman edəcək. Onda Allah buyuracaq: "Dünyada sənin günahlarının üstünə örtük çəkdim, bu gün də Mən sənin günahlarını bağışlayıram".**

(93) Rəvayət edilir ki, Əbu Dərda ﵁ demişdir: "Hər bir şeyin cilalanma yolu vardır. Qəlblər isə Allahı zikr etməklə cilalanır".

Əşyanı cilalamaq, onu xüsusi maddə və ya alət ilə sürtməklə parıldatmaq deməkdir. Demək, qəlbin nur saçması üçün daim Allahı zikr etmək gərəkdir.

(94) Abdullah ibn Məsud ﵁ demişdir: "Malı oğurlanmış adam bəzən o qədər zənn edər ki, oğrudan daha böyük günah qazanar".

Səhabə bununla demək istəyir ki, adam haqsız yerə, günahı olmayan mömin qardaşları barədə pis fikirləşməklə, onlardan hər birinin bu oğurluqda əli olduğunu zənn etməklə oğrudan daha çox günah qazanır. Zənn etməyin günah olması barədə

Rəsulullah ﷺ belə buyurmuşdur: **“Zənnə qapılmaqdan çəkinin! Çünki zənn ən yalan sözdür”.**

95 Rəvayət edilir ki, bir gün Ömər ibn Abdulaziz رحمه الله bir kişinin yanından keçərkən, onun əlindəki daşları oynada-oynada: “Allahım, məni hurilərlə evləndir!”– dediyini eşitdi. Onda Ömər ibn Abdulaziz رحمه الله onu qınayıb dedi: “Sən necə də ədəbsiz dua edirsən. Daşları yerə atıb, Allaha ixlasla dua edə bilmirsənmi?!”

O dövrdə insanlar bu cür ədəbsizlik edərdi. İndikilərin də bəziləri əllərindəki telefonla oynaya-oynaya zikr edirlər. Belələrinə: “Telefonu qırağa qoyub, Allaha ixlasla dua edə bilmirsənmi?!”– demək lazımdır.

96 Rəvayət edilir ki, Muhəmməd ibn Şihab əz-Zuhri رحمه الله səfərdə ikən aşura orucunu tutdu. Yanındakılar ona dedilər: “Nəyə görə sən səfərdə aşura orucunu tutursan, ramazan orucunu isə tutmursan?” Zuhri رحمه الله dedi: “Çünki ramazan orucunun qəzasını başqa günlərdə tutmaq olar, aşura orucunun isə qəzası olmur”.

(97) Rəvayət edilir ki, Tavusdan ﷺ nə üçün çox vaxt susmasının səbəbini soruşduqda, belə demişdir: "Mən uzun müddət dilimin nələr danışdığına nəzər saldım və onun rəzil olduğunun şahidi oldum".

Həqiqətən də, dil adamı rəzil edə bilər. Bu xüsusda Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: "Çox danışan adamın xətası çox olar. Xətası çox olan adamın günahları çoxalar. Günahları çoxalan adamın isə Cəhənnəm oduna düşmək ehtimalı daha çox olar".

(98) Rəvayətə görə, Abdullah ibn Məsud رضي الله عنه demişdir: "İnsanlar Muhəmmədin ﷺ səhabələrinin təbliğ etdiyi elmdən, habelə, böyük alimlərinin elmindən möhkəm yapışdıqları müddətcə xeyir içində qalar, balacalarından elm aldıqları təqdirdə isə həlak olarlar".

Səhabənin sözündə həqiqət var. Həqiqətən də yaşlı müsəlmanlarda xeyir-bərəkət var. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Bərəkət, böyüklərinizin yanındadır"**.

(99) Rəvayətə görə, Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Musiqi adamın qəlbində nifaq bitirir (cücərdir)".

Musiqi xüsusunda Peyğəmbər صلى الله عليه وسلم demişdir: **"İki səs vardır ki, bunlar dünyada da, axirətdə də lənətlənmişdir: kef məclisində çalınan musiqi və bir də yasdakı vay-şivən səsi".**

(100) Rəvayətə görə, Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: "Əgər siz müsəlman qardaşlarınıza dediyiniz: "Cəzakəllahu xayra (Allah səni xeyirlə mükafatlandırsın!)" sözündə nə qədər xeyir-bərəkət olduğunu bilsəydiniz, bu sözü bir-birinizə çox deyərdiniz".